Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2022, **s. 95-98**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2022, **с. 95-98**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2022, **pp. 95-98**

UOT 78.02

G.Ə.Axundova
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
E-mail: axundova1949@mail.ru

GÖRKƏMLİ AZƏRBAYCAN DİRİJORU RAUF ABDULLAYEVİN YARADICILIQ YOLU

Açar sözlər: *dirijor, incəsənət, festival, orkestr, konsert*

Məqalədə görkəmli Azərbaycan dirijoru R.Abdullayevin zəngin və parlaq yaradıcılıq yolu göstərilmişdir. Onun ilk gənc yaşlarından bu günə kimi ölkəmizin musiqi sənətinə verdiyi töfhələr araşdırılır. Qeyd olunur ki, R.Abdullayev nəinki bizim ölkədə, lakin bütün türk dünyasında, MDB məkanında, Avropa, ABŞ və ərəb ölkələrində böyük nüfuz qaanmış böyük bir sənətkardır. Onun yorulmaz fəaliyyəti sayəsində ölkəmizin simfonik ifaçılığı çox böyük uğurlar qazanmışdır.

Г.А.Ахундова

ТВОРЧЕСКИЙ ПУТЬ ИЗВЕСТНОГО АЗЕРБАЙДЖАНСКОГО ДИРИЖЁРА РАУФА АБДУЛЛАЕВА

Ключевые слова: *дирижёр, искусство, фестиваль, оркестр, концерт*

В статье показан богатый и блестящий творческий путь выдающегося азербайджанского дирижера Р.Абдуллаева. Исследуется его вклад в музыкальное искусство нашей страны с молодых лет до наших дней. Отмечается, что Р.Абдуллаев – большой художник, зарекомендовавший себя не только в нашей стране, но и во всем тюркском мире, СНГ, Европе, США и арабском мире. Благодаря его неутомимой деятельности симфоническое исполнительство в нашей стране достигло больших успехов.

G.A.Akhundova

THE CREATIVE WAY OF THE FAMOUS AZERBAIJANI CONDUCTOR RAUF ABDULLAYEV

Keywords: *conductor, art, festival, orchestra, concert*

The article shows the rich and brilliant career of the outstanding Azerbaijani conductor R.Abdullayev. His contribution to the musical art of our country from his youth to the present day is being investigated. It is noted that R. Abdullaev is a great artist who has established himself not only in our country, but also throughout the Turkic world, the CIS, Europe, the USA and the Arab world. Thanks to his tireless work, symphony performance in our country has achieved great success.

Yaşadığımız dövr hadisələr ilə zəngindir. Bu zəginliklər içində çoxsaylı fikirlər söylənilir, fikirlər haçalanır, toqquşur və mübahisələr doğurur. Bu çox saylı fikir ayrılıqları içərisində bizi ən çox narahat edən bir məsələ var: musiqi mədəniyyətimizin keçmişi, bu günkü durumu və gələcəyə doğru irəliləyişi. Bütün çatışmazlıqlara baxmayaraq, milli musiqi mədəniyyətimiz böyük Üzeyir-bəydən başlayaraq bu günlərədək heç bir zaman görkəmli çəxsiyyətlər baxımından korluq çəkməyib və onların arasında dirijorların da payı var. Azərbaycan müasir musiqi mədəniyyətinin görkəmli nümayəndəsi olan Respublikanın Xalq artisti, professor Rauf Abdullayev belə şəxsiyyətlərdəndir.

Görkəmli dirijor Rauf Abdullayev 1937-ci ildə anadan olmuşdur. Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını piano üzrə (1959) və Leninqrad Dövlət Konservatoriyasını dirijorluq üzrə (1965) bitirmişdir. Bundan sonra M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrına dəvət alan sənətkar 1965-84-cü illərdə bu teatrının baş dirijoru olaraq çalışmışdır.

70-ci illərdə R.Abdullayev Müasir Musiqi Kamera Orkestrinin və BaKaRa ansamblının yaradıcılarından biri, 1984-cü ildən Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru olmuşdur. R.Abdullayevin rəhbərliyi altında orkestr yüksək mədəni ifaçılıq səviyyəsi, professionallıq qazanaraq, xarici ölkələrə konsert səfərləri ilə bir çox uğurlara imza atmışdır. Sənətkar xüsusi olaraq Azərbaycan bəstəkarlarının musiqi əsərlərinin ifasına üstünlük verirdi. Bəstəkarlarımızın bir çox operaları, balet və simfoniyaları məhz R.Abdullayevin rəhbərliyi ilə ilk dəfə ölkə daxilində və xaricdə məharətlə ifa olunmuşdur.

Onun qüsursuz ifaçılıq zövqü və mahir interpretasiya bacarığı həm professionallar, həm də musiqi həvəskarları tərəfindən birmənalı olaraq alqışlanır.

Onun möhtəşəm ifası Fransa, Almaniya, ABŞ, Rusiya, Böyük Britaniya, Türkiyə, İraq, Misir, Belçika, Hollandiya, İtaliya, Finlandiya, Avstriya, İsveçrə, Birləşmiş Ərəb Əmirlikləri, Meksika və başqa ölkələrin dinləyicilərinə də yaxşı tanışdır. O, bu ölkələrdə məşhur kollektivlərə dirijorluq etmişdir. Repertuarına bir çox Qərbi Avropa, Azərbaycan və rus bəstəkarlarının əsərləri daxildir. Rauf Abdullayevin geniş əhatəli repertuarına müxtəlif dövrlərdən, üslub və cərəyanlardan olan əsərlər daxildir. Abdullayevin rəhbərliyi altında orkestr yüksək mədəni ifaçılıq səviyyəsi, professionallıq qazanaraq, xarici konsert səfərləri ilə geniş surətdə nəzərəçarpan bir çox uğurlara imza atmışdır.

1991-1997-ci illərdə Rauf Abdullayev Ankara Dövlət Opera və Balet Teatrının bədii rəhbəri və baş dirijoru, beynəlxalq əhəmiyyətli musiqi festivallarının və layihələrin iştirakçısı olmuşdur. O, çalışdığı Ankara Opera və Balet Teatrında dirijorluq fəaliyyətinə görə iki dəfə "Türkiyədə İlin ən yaxşı dirijoru" adına layiq görülmüşdür.

R.Abdullayev həmçinin Qara Qarayev adına "İyirminci Əsr Musiqisi" Klassik Musiqi Festivalının təsisçi və təşkilatçılarından biridir. Sənətkarın müxtəlif yaradıcılıq kollektivlərində baş dirijor kimi 40 illik fəaliyyəti musiqi dünyasında onun misilsiz və nadir fenomen olaraq böyük nüfuzundan xəbər verir.

2010-cu ildə İstanbulun Avropa Mədəniyyət Paytaxtı elan olunması ilə əlaqədar Türkiyənin İstanbul şəhərində iyulun 2-dən 23-dək keçirilən 1-ci Beynəlxalq Opera Festivalında dahi bəstəkarımız Ü.Hacıbəyovun "Koroğlu" operası dünya şöhrətli dirijorumuz Rauf Abdullayevin rəhbərlik etdiyi Azərbaycan simfonik orkestrinin ifasında səsləndirilmişdir.

İyulun 23-də Haliç-Konqres Mərkəzi salonuna toplaşan minlərlə dəvətli ilk dəfə Türkiyə türkcəsində səhnələşdirilən "Koroğlu" operasının türkdilli ifaçılarını ayaqüstə alqışlayıb. Azərbaycan Respublikasının Xalq Artisti, professor Rauf Abdullayevin rəhbərliyi ilə səsləndirilən ölməz əsər festival iştirakçılarına unudulmaz bir gecə yaşadıb. Əsərin spesifik çalarlarını daha canlı əks etdirmək üçün orkestrdə tar, kamança, zurna, balaban kimi milli musiqi alətləri də yer almışdır.

Türkdilli xalqların "TÜRKSOY" təşkilatının Baş Katibliyi bu əsərin türk dünyasının tanınmış sənətçiləri ilə birlikdə yenidən səhnələşdirilməsi məqsədilə hələ 2009-cu ildən müvafiq işlərə başlamışdı. İstanbuldan öncə Ankara, Bakı, Bişkek və Almatıda səhnələşdirilən opera bu paytaxt şəhərlərində də maestro R.Abdullayevin dirijorluq etdiyi orkestrin ifasında təqdim olunmuşdu.

Maestro Rauf Abdullayevin yaradıcılıq fəaliyyəti böyük və çoxşaxəlidir: çoxsaylı beynəlxalq festivallarda iştirak, qastrol fəaliyyəti, çoxsaylı premyeralar. Bakıda keçirilən M.Rostropoviç, Q.Qarayevə həsr olunmuş beynəlxalq festivallarda R.Abdullayevin idarəsi altında çıxış edən simfonik orkestr hər zaman yeni, parlaq əsərlərlə ilk sıralarda çıxış edir və öz dinləyicilərini sevindirir. Belə ki,

orkestrin ifa etdiyi Q.Malerin №4 simfoniyası, Y.Bramsın simfoniyası, S.Raxmaninovun "Zınqırovlar" ("Kolokola") simfonik əsəri dinləyicilərin diqqətini cəlb etmişdir. Müxtəlif xarici ölkələrin musiqiçiləri çox böyük məmnuniyyətlə R.Abdullayevin orkestri ilə birgə səhnəyə çıxmağa üstünlük verir.

2014-cü ilin sonu Bakının musiqisevərlərinin xatirəsində C.Verdinin "Otello" operasının R.Abdullayev tərəfindən yeni səhnələşdirilməsinin konsert ifasının həyata keçirilməsi ilə yadda qalmışdır.

R.Abdullayev bir çox filmlərdə musiqinin ifasının dirijoru olmuşdu. Belə ki, onun filmoqrafiyasına aşağıdakı filmlər daxildir: Babək (1979), Yeddi gözəl (1982), Qətl günü (1990), Özgə vaxt (1996), Könül nəğməsində variasiyalar (2002), Maestro (2002), Bir anın həqiqəti (2003), Arxada qalmış gələcək (2004), Cavid ömrü (2007), Maestro Niyazi (2007), Məhkumlar (2007), Cavad xan (2009), Ölüm növbəsi (2009), Buta (2011), Tərsinə çevrilən dünya (2011), Sübhün səfiri (2012).

Rauf Abdullayev fəal və yorulmaz karyerası müddətində bir çox fəxri dövlət mükafatları və adları ilə, həmçinin xarici titullarla təltif olunmuşdur. O, professor, Azərbaycanın Xalq artisti, Dövlət mükafatları laureatıdır. Azərbaycan xalqının ümumilli lideri, ulu öndər Heydər Əliyevin R.Abdullayevi "Şöhrət" ordeni ilə təltif etməsi, dövlətin, görkəmli musiqiçiyə qarşı olan dəyərinin daha bir təcəssümüdür.

2017-ci ildə Prezident İlham Əliyev Rauf Abdullayevi "İstiqlal" odeni ilə təltif etmişdir. R.Abdullayev 2018-ci ildə Moskvada MDB dövlətlərarası mükafatı olan "Birliyin ulduzları" mükafatına layiq görülmüşdür. Həmin il maestro "Qızıl çinar" beynəlxalq mükafatı laureatı olmuşdur.

Bu il, oktyabrın 29-u görkəmli sənətkarın 85 ili tamam olacaq. Biz ona möhkəm cansağlığı və yaradıcılıq uğurlarının davamını arzu edirik.

ƏDƏBİYYAT

1. G.Ə.Azundova "Azərbaycanın görkəmli dirijorları və xormeysterləri", Bakı, 2016
2. https://ru.wikipedia.org/wiki/

Məqalənin redaksiyaya daxil olma tarixi: 03.01.2022
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 06.01.2022
Məqalənin çapa qəbul olunma tarixi: 15.02.2022
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
sənətşünaslıq üzrə elmlər doktoru, dosent Ülkər Əliyeva
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.